


"İranda baş verən zəlzələ Azərbaycan ərazisində zəlzələ ocaqlarının oyanmasına səbəb ola bilməz".

Bu sözləri Sonxeber.az-a açıqlamasında Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli deyib.

Onun sözlərinə görə, əhalinin narahat olmasıa heç bir əsas yoxdur. Xırda təkanların baş verməsi tez-tez təkrarlanır. Hiss olunan zəlzələ baş verə bilər amma bunun dağıdıcı zəlzələlərə çevrilməsi gözlənilmir.

"Narahatçılığa əsas görmürəm. Azərbaycanda yaxın vaxtlarda dağıdıcı zəlzələ baş verəcəyi gözlənilmir."

Qeyd edək ki, İranda yenidən 4,6 bal gücündə zəlzələ baş verib.

Sonxeber.az apa-ya istinadən xəbər verir ki, bu barədə Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzi məlumat yayıb.

Dağıntı və zərərçəkənlər barədə məlumat daxil olmayıb. Dünən isə Azərbaycanda yerli vaxtla saat 04:11-də Ağsuda Pirquludan 7 km qərbdə Ağsu ərazisində qeydə alınıb.

Zəlzələ hiss olunmayıb.